UOT 321;323
DOI: https://doi.org/10.30546/19063.2026.06.5049

POSTSOVET ÖLKƏLƏRİNDƏ PARLAMENTARİZM: ƏSAS XÜSUSİYYƏTLƏR, ÜMUMİ VƏ FƏRQLİ CƏHƏTLƏR

ALI GÜMRAH OĞLU EYVAZOV
Bakı Dövlət Universitetinin
Politologiya və Sosiologiya kafedrasının doktorantı
Bakı ş., Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148
E-mail: eyvazli.ali@mail.ru

XÜLASƏ

Məqalədə postsovet məkanında parlamentarizmin formalaşması, institusional xüsusiyyətləri və inkişaf mərhələləri geniş şəkildə təhlil olunur. Tədqiqatın əsas məqsədi postsovet ölkələrində ali qanunverici orqanların demokratikləşmə prosesindəki rolunu, onların güclü prezident idarəçiliyi fonunda qarşılaşdıqları çətinlikləri və sistemlərarası fərqləri müəyyənləşdirməkdir. Sovet dönəminin mirası olan təkpartiyalı idarəetmə modeli uzun müddət parlamentarizm ənənələrinin inkişafını ləngitmiş, bu isə müstəqillikdən sonrakı dövrdə institusional boşluqlar yaratmışdır. Məqalədə postsovet ölkələrinin konstitusion modelləri müqayisə edilərək demokratik nəzarət mexanizmləri analiz olunur. Bu kontekstdə, sözügedən respublikalar parlamentin siyasi sistemdəki institusional çəkisinə və icra hakimiyyəti qarşısındakı nüfuz dərəcəsinə görə təsnif edilir. Xüsusilə qeyd edilir ki, prezident üsul-idarəsi tətbiq edilən ölkələrdə avtoritar meyillər güclənmiş, halbuki, parlament modelinə üstünlük verilən ölkələrdə (Baltikyanı respublikalar, Gürcüstan, Moldova və s.) demokratik təsisatlar daha davamlı xarakter almışdır. "Rəngli inqilablar" nəticəsində Gürcüstan, Ukrayna, Qırğızıstan və Ermənistanda həyata keçirilən konstitusiya islahatları parlamentarizmin yenilənməsinə təkan vermişdir. Məqalə postsovet məkanında parlamentarizmin gələcək inkişafı üçün hüquqi baza, siyasi mədəniyyət və vətəndaş cəmiyyəti amillərinin harmoniyasını vacib şərt kimi irəli sürür.

Açar sözlər: *parlamentarizm, postsovet ölkələri, prezident üsul-idarəsi, imperativ mandat, demokratikləşmə, konstitusiya islahatları.*

GİRİŞ

Müasir demokratik cəmiyyətlərdə parlament xalqın iradəsini təmsil edən, qanunvericilik təşəbbüsləri irəli sürən və icra hakimiyyətinin fəaliyyətinə nəzarət edən əsas dövlət təsisatıdır. Ali qanunverici orqan kimi parlament hakimiyyət bölgüsü prinsipində tarazlıq və qarşılıqlı nəzarət mexanizminin qorunmasına, insan hüquq və azadlıqlarının təmin edilməsinə, həmçinin demokratiya və şəffaf idarəetmə prinsiplərinin möhkəmlənməsinə birbaşa xidmət edir. Tanınmış politoloq Robert Dal vurğulayır ki, institutların real hesabatlılığı və müxalifət mühitinin qorunması hökumət üzərində effektiv qanunverici nəzarətin mövcudluğundan birbaşa asılıdır [2, s. 28–31]. Təsadüfi deyil ki, hüquqi dövlətlərdə parlament institutu çox vaxt demokratiyanın və qanunun aliliyinin simvolu kimi çıxış edir.

Sovet İttifaqının dağılması ilə geniş postsovet məkanında uzun illər tək ideologiya üzərində qurulmuş totalitar sistemlər çökmüş, siyasi plüralizmə və hakimiyyət bölgüsünə əsaslanan demokratik institutların formalaşması yeni mərhələyə qədəm qoymuşdur. Tarixi reallıq göstərir ki, müstəqilliyini yenicə bərpa etmiş bu dövlətlərin əksəriyyətində real hakimiyyət bölgüsü mexanizmləri uzun müddət, sovet rejimi ərzində mövcud olmamışdır. Bu dövlətlərdə sovetlər formal qanunverici orqan statusuna malik olsa da, faktiki olaraq Kommunist Partiyasının direktivlərini təsdiqləyən strukturlar idilər. Totalitar durğunluq mühitində qanunverici hakimiyyətin təşəbbüskarlıq funksiyası, parlamentin hökumət üzərində nəzarət imkanları və debat mədəniyyəti tədricən itmiş, siyasi-institusional yaddaş zəifləmişdir. Beləliklə, müstəqillik dövrünə qədəm qoyan postsovet respublikaları parlamentarizm ənənəsindən məhrum, institusional cəhətdən zəif və siyasi baxımdan asılı qanunverici orqanlarla üz-üzə qalmışdılar. Nobel mükafatı laureatı Duqlas Nortun da institusional asılılıq nəzəriyyəsində əsaslandırdığı kimi, keçmişin uzunmüddətli totalitar vərdişləri və formalaşmış köhnə strukturları müstəqillikdən sonrakı yeni dövrdə səmərəli idarəetmə institutlarının qurulmasını kəskin şəkildə ləngidir [3, s. 92–95]. Bu kontekstdə parlamentarizmin bərpası və inkişafı postsovet ölkələri üçün təkcə hüquqi və siyasi məsələ deyil, həm də demokratik dövlət quruculuğunun əsaslı və gecikdirilmədən həyata keçirilməsində prioritetə çevrilmişdir.

Postsovet keçid dövrü: Tarixi irs və institusional seçim

Sovet sisteminin süqutundan sonra bir çox ölkələrdə güclü prezident modelinin seçilməsi siyasi sabitliyin təmin edilməsi və idarəetmənin koordinasiya-

sı baxımından müəyyən dərəcədə rasional addım kimi dəyərləndirilə bilərdi. Lakin siyasi institutların müqayisəli təhlili sahəsində nüfuzlu tədqiqatçı Arend Leyphart qeyd edir ki, keçid dövründə olan və dərin daxili ziddiyyətlər daşıyan cəmiyyətlərdə hakimiyyətin mərkəzləşdirilməsi idarəetməni plüralizmdən məhrum edərək parçalanmanı daha da dərinləşdirir [4, s. 42–45]. Tomas Karoters də öz növbəsində bildirir ki, keçid dövründəki rejimlərin avtomatik olaraq demokratiyaya doğru hərəkət etdiyini düşünmək xətadır, çünki bir çox postsovet ölkəsi institusional olaraq "keçid" mərhələsində donub qalmışdır [5, s. 6–9].

Nəzərə almaq lazımdır ki, postsovet respublikalarının əksəriyyətində parlamentarizm tamamilə yeni və yad bir təzahür deyildi. Çar Rusiyasının dağılmasından sonra regionda artıq respublika və parlamentarizm təcrübələri mövcud olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920), Gürcüstan Demokratik Respublikası (1918–1921) və Baltikyanı dövlətlər (Estoniya, Latviya, Litva) çoxpartiyalı siyasi rəqabət mühiti, hökumətin parlament qarşısında məsuliyyəti və vətəndaş hüquqlarını təmin edən qanunvericilik bazası formalaşdırmağa nail olmuşdular. Bu tarixi faktlar parlamentarizmin regionun siyasi mədəniyyətində dərin köklərə malik olduğunu göstərir. Bu xüsusda, qənaətimizə görə, sovet sisteminin dağılmasından sonra keçid dövrünün həssas mərhələsində sabitliyin qorunması məqsədilə qısamüddətli güclü prezident idarəçiliyinin tətbiq edilməsi, ardınca isə mərhələli şəkildə parlamentin səlahiyyətlərinin genişləndirilməsi yolu daha optimal bir seçim ola bilərdi. Belə bir yanaşma həm hakimiyyətin bölgüsü prinsipinin real işləkliyinə, həm də vətəndaş cəmiyyətinin canlanmasına təkan verərdi. Nəticə etibarilə, sovet idarəçiliyindən demokratik sistemə keçid prosesi yalnız siyasi rejimin dəyişməsi ilə deyil, həm də institusional yaddaşın yenidən qurulması, qərarvermə mədəniyyətinin formalaşması və hakimiyyət bölgüsünün real tətbiqi ilə müşayiət olunmalı idi.

Postsovet dövlətlərində parlamentarizm və prezidentlik dilemması

Demokratikləşmə perspektivindən yanaşdıqda, post-kommunist ölkələri arasındakı fundamental fərqlər çox vaxt prezident ilə parlament arasındakı institusional güc mübarizəsindən qaynaqlanır. Bu tip problemlər özünü daha qabarıq şəkildə yarı-prezident sistemlərində büruzə verir. Bəzi yarı-prezident modelləri de-fakto ifrat prezident mərkəzlidir və burada rəsmi səlahiyyətlər parlamentdən ziyadə dövlət başçısının şəxsində cəmləşir. 1991-ci ildə Kommunist Partiyasının süqutu ilə idarəetmə rıçaqları respublikaların rəhbərlərinə, əsasən keçmiş respublika partiya liderlərinə keçdi. Dövlət idarəçiliyinin fəlsəfəsi prezidentlik təsisatının gücləndirilməsi ilə əlaqələndirilmiş, sonradan birbaşa prezident seçkilərinin tətbiqi dövlət başçılarının parlamentlər qarşısındakı mövqeyini daha da möhkəmləndirmişdir.

Həm prezident, həm də parlament xalqın etimad mandatına əsaslanır. Lakin prezidentin birbaşa səsvermə yolu ilə seçilməsi onun mandatına daha yüksək siyasi legitimlik qazandırır. Prezident bütün xalq tərəfindən seçildiyi halda, deputatlar yalnız ayrı-ayrı seçki dairələrinin vətəndaşlarını təmsil edirlər. Klassik prezident respublikalarında dövlət başçısı və onun kabineti parlamentdən asılı deyildir. Bu səbəbdən onun parlament qarşısında birbaşa siyasi məsuliyyəti yoxdur. Prezident modelində dövlət başçısının konstitusiya statusunun əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, o həm dövlət başçısı, həm də hökumət başçısı funksiyalarını birləşdirir. Parlamentin hökumətə etimadsızlıq votumu vermək hüququ olmadığı kimi, prezidentin də parlamenti buraxmaq səlahiyyəti yoxdur. Bu model ilk dəfə ABŞ-də formalaşdığı üçün "Amerika modeli" adlandırılır.

Amerika modelinə görə prezident geniş səlahiyyətlərə malik olsa da, hakimiyyət bölgüsü prinsipinin gətirdiyi "çəkindirmə və tarazlıq" mexanizmi avtoritar idarəetməyə imkan vermir. Bu sistemdə prezidentin fəaliyyətinə qarşı tənzimləyici rolu qanunverici və məhkəmə orqanları üstlənir. Bununla belə, bu modelin daxilində də qanunverici və icraedici qanadlar arasında qarşıdurma riski mövcuddur. Bəzən prezident öz siyasi kursunu həyata keçirir, parlament isə fərqli istiqamət götürür. Dövlət hakimiyyətinin bölünməsi və balans mexanizmləri formal baxımdan dövlət siyasətində tarazlıq yaratsa da, bu uyğunluq təkcə institusional dizayndan deyil, həm də çoxillik demokratik təcrübədən, vətəndaş cəmiyyətinin yetkinliyindən və ictimai şüurun səviyyəsindən qaynaqlanır.

Demokratik ənənələri köklü olmayan ölkələrdə bu model əksər hallarda institusional böhran və ya idarəetmənin həddindən artıq mərkəzləşməsi ilə nəticələnir. Bu növ ölkələrdə prezidentlər hökuməti təkbaşına formalaşdırırlar və parlamentin nəzarət imkanları ABŞ Konqresi ilə müqayisədə olduqca zəifdir. Postsovet coğrafiyasında prezident idarəçiliyinin mərkəzləşmə meyilləri ilə nəticələnməsini cəmiyyətin uzun müddət tək mərkəzli rəhbərlik modelinə adaptasiya olması ilə izah etmək olar. Sovet dövründə siyasi sistem faktiki olaraq bir nəfərin, Kommunist Partiyasının Baş katibinin iradəsinə

əsaslanırdı, dövlət idarəçiliyində kollegial qərarvermə, hakimiyyətin bölgüsü və qarşılıqlı nəzarət mexanizmləri ya mövcud deyildi, ya da formal xarakter daşıyırdı. Bu tarixi təcrübə postsovet cəmiyyətlərində "güclü lider" fenomeninin geniş ictimai qəbul və legitimlik qazanmasına şərait yaratmışdır. Belə bir mühitdə prezident sistemi tətbiq edildikdə, dövlət başçısı zamanla parlamentin rolunu məhdudlaşdırmağa, məhkəmə hakimiyyətini asılı vəziyyətə salmağa meyil göstərir. Cəmiyyət isə uzun müddət güclü liderlik modelinə öyrəşdiyi üçün bu mərkəzləşməni təhlükə kimi deyil, sabitliyin təminatı kimi qəbul edir və buna qarşı siyasi müqavimət formalaşdırmır. Henri Heyl bu dinamikaları diqqətə alaraq bildirir ki, prezidentlik idarəetməsi postsovet cəmiyyətlərində monosentrik rejimlərin qurulmasına asanlıqla zəmin hazırlayır [1].

Mərkəzi və Şərqi Avropada parlamentli respublika modelini seçən dövlətlər (Çexiya, Estoniya, Macarıstan, Litva, Polşa, Sloveniya) daha uğurlu və dayanıqlı bir demokratik inkişaf xətti nümayiş etdirmişlər. Bunun əksinə olaraq, prezident idarəçiliyini mənimsəyən ölkələr (Belarus, Rusiya, Ukrayna) çox zaman avtoritar meyillərə və ya siyasi qeyri-sabitliyə məruz qalmışdır [6, s. 193]. Xuan Lins qeyd edir ki, prezident idarəçiliyi öz təbiəti etibarilə hakimiyyətinin mərkəzləşdirilməsinə meyilli olduğu üçün konsensus ehtiyacını azaldır və bu da sistemin çevikliyini məhdudlaşdırır [7, s. 56]. Bunun əksinə, parlamentli idarəetmə modeli siyasi konsensusa zəmin hazırlamaqla yanaşı, Lins və Stepanın da vurğuladığı kimi, dəstəyini itirmiş hökumətləri struktur böhranı yaratmadan daha çevik və elastik mexanizmlərlə əvəzləməyə imkan verir [8, s. 17]. Bundan əlavə, parlamentli sistem müxtəlif sosial qrupların və azlıqların maraqlarının qanunverici orqan səviyyəsində təmsil olunmasını asanlaşdırır ki, bu da ictimai sabitliyi gücləndirir.

Parlamentin Siyasi Təsir İmkanları və İnstitusional Çəkisi

Hökumətin fəaliyyətinə parlament nəzarətinin effektivliyi əsasən siyasi sistemin arxitekturası, konstitusion-hüquqi əsaslar və institusional mexanizmlərlə şərtlənir. Müqayisəli təhlil göstərir ki, müxtəlif postsovet ölkələrində tətbiq olunan nəzarət formalarının fərqli modellər üzrə inkişafı idarəetmə formasından, rejim tipindən və parlament nəzarətinin konstitusiya təsbitindən asılı olaraq dəyişir. Bir çox postsovet ölkələrində parlamentin nəzarət mexanizmləri, funksional-struktur quruluşu, parlament komissiyalarının qərarları və iş prinsiplərinin konstitusion hüquqi bazası qeyri-müəyyən və ya zəifdir.

Sovet rejimi çökdükdən sonra parlamentarizm ənənələri uzun zaman sovet totalitarizmi ilə, demək olar ki, sıradan çıxarılmış Qırğızıstan, Qazaxıstan və Azərbaycan kimi dövlətlərdə parlament hüququ rus və Avropa hüquq elementlərinin mənimsənilməsi ilə, Belarus və Özbəkistanda isə sovet parlament prinsiplərinin qorunması yolu ilə formalaşmışdır. Türkmənistanda reallaşdırılan ardıcıl konstitusiya manipulyasiyaları nəticəsində "Məclis" (parlament) qanunvericilik prosesinin kənarına itələnmiş, onun funksional çəkisi simvolik səviyyəyə endirilmişdir. Son institusional dəyişikliklərlə parlamentin fövqündə qərarlaşan və "xalq hakimiyyətinin ali orqanı" kimi təsis edilən "Xalq Məsləhəti"nin parlamentlə paralel fəaliyyəti dövlətdə qanunvericilik mexanizminin mütləq şəkildə tək mərkəzdə cəmləşdiyini və demokratik təsisatların sadəcə xarici imitasiyadan ibarət olduğunu bariz şəkildə nümayiş etdirir [13].

N. Filippova postsovet dövlətlərində parlament təsisatlarının qurulmasının siyasi irs və sovetin çöküşündə mövcud olmuş ictimai siyasi şəraitlə əlaqələndirərək fərqli "başlanğıc imkanları" zəminində formalaşdığını qeyd edir. Baltikyanı ölkələr, Ukrayna, Rusiya və Gürcüstan sovet dönəmindən əvvəl də müəyyən parlament mədəniyyətinə malik idilər. Bu səbəbdən parlamentlər həmin ölkələrdə milli oyanış proseslərinin mühüm hərəkətverici qüvvəsinə çevrildi. Bəzi ölkələrdə isə belə ənənələr yox idi və milli müstəqillik ideyası bir lider, prezidentin şəxsində təcəssüm tapmışdı [10, s. 140]. Buna görə də Sovetin çökməsi ilə baş qaldırmış etnik milli toqquşmalar, siyasi böhran və müharibə zamanında bəzi regionlarda cəmiyyət içərisində böyük nüfuza sahib olan keçmiş kommunist liderlər böhranların xilaskarı kimi siyasi səhnədə ön plana çıxmağa, zamanla güclü prezidentlik institutunu formalaşdırmağa nail oldular. Parlamentin ümumi siyasi sistemdəki institusional çəkisinə və icra hakimiyyətinə effektiv təsir imkanlarına görə region dövlətlərini şərti olaraq üç əsas qrup üzrə təsnif etmək mümkündür.

Hərçənd ki, müasir Qərb siyasi ədəbiyyatında və beynəlxalq hesabatlarda Baltikyanı respublikalar (Latviya, Litva, Estoniya) sovet işğalından sonrakı fərqli hüquqi varislik prinsiplərinə və sürətli Avro-Atlantik inteqrasiya uğurlarına görə "postsovet" kateqoriyasına daxil edilmir; lakin Azərbaycan elmi-siyasi yanaşmasında və keçid dövrü ölkələri ilə bağlı müqayisəli təhlillərdə bu dövlətlər keçmiş sovet coğrafiyasının institusional başlanğıc nöqtəsini bölüşən ən mütərəqqi parlamentsentrik model nümunələri kimi qəbul olunur. Məhz bu baxımdan,

sözügedən respublikalar və bütöv bir mərhələdə demokratik transformasiya nümayiş etdirmiş Moldova bu ierarxiyanın ilkin güclü qrupunu təşkil edir. İkinci şərti qrupda yer alan Gürcüstan, Ermənistan və Ukrayna kimi dövlətlərdə parlamentlərin hüquqi muxtariyyəti, qanunvericilik müstəqilliyi və icraedici orqan qarşısındakı institusional çəkisi hələ də nisbətən yüksək statusda qorunmaqdadır. Rusiya Federasiyası bu reytinqdə kəskin sərhəd və keçid mövqe tutduğu halda, onun ardınca gələn və ali qanunverici orqanların daha çox periferik funksiyalar daşıdığı Azərbaycan və Tacikistan kimi ölkələrdə parlament institutları marjinal statusa malikdir.

Bu kontekstdə Qazaxıstan, Belarus, Özbəkistan və Türkmənistanla eyni qrupda qərarlaşaraq parlament nəzarəti resurslarının minimum səviyyəyə endirildiyi dövlətlər sırasına xüsusilə Qırğızıstanı da əlavə etmək zəruridir. Belə ki, Prezident Sadır Japarovun təşəbbüsü ilə keçirilən 2021-ci il konstitusiya referendumu ölkədəki parlamentsentrik idarəçilik modelini tamamilə ləğv edərək sərt, mərkəzləşdirilmiş superprezident idarəçiliyinə keçidə səbəb olmuşdur [20]. Reallaşdırılan bu radikal transformasiya nəticəsində "Joqorku Keneş"in deputat sayısı 120-dən 90-a endirilmiş, onun hökumətin formalaşdırılması və icra hakimiyyəti üzərindəki fundamental nəzarət səlahiyyətləri rəsmi şəkildə əlindən alınmışdır. Bu kəskin institusional reqresiya, Qırğızıstan parlamentinin siyasi çəkisini real parlamentsentrik statusdan mütləq şəkildə qanunverici hakimiyyətin minimum mövqeyə sıxışdırıldığı marjinal səviyyəyə endirmişdir.

Qanunverici hakimiyyətin zəifləməsini şərtləndirən institusional amillər

Siyasi sistemin bütün struktur komponentləri bir-biri ilə sıx dialektik və funksional asılılıq əlaqəsində olub, bütövlükdə dövlət mexanizminin effektivliyini şərtləndirir. Bu baxımdan, xalq təmsilçiliyi statusuna malik parlamentin real fəaliyyət imkanları da ölkədəki digər daxili institutların ümumi vərdişlərindən və vəziyyətindən birbaşa asılıdır. Ali qanunverici orqanın səmərəliliyi və nəzarət gücü seçki modelinin xarakteri, partiya sisteminin struktur dərinliyi, vətəndaş cəmiyyətinin horizontal inkişafı və media azadlığı ilə sıx bağlılıq nümayiş etdirir. Müəyyən olunan bu daxili institusional amillər fonunda, postsovet məkanında bir çox parlamentin icra hakimiyyəti qarşısında zəif və periferik mövqedə qalmasının əsas səbəblərini aşağıdakı çoxölçülü aspektlərdə təhlil etmək mümkündür:

Geniş Prezident Səlahiyyətləri və Fərman Hüququ: Bir sıra post-sovet ölkələrində, xüsusilə MDB məkanında parlamentlərin nominal olaraq prezident və parlamentin balansı qorunur, amma əslində sistem super-prezidentlik rejiminə çevrilir. Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Belarusda qanunvericilik funksiyalarının prezident tərəfindən əvəz edilməsi institutu formalaşmışdır, belə ki, prezidentin qəbul etdiyi aktların parlament tərəfindən təsdiq edilməsi və onların qarşısında alternativ hüquqi mexanizm yoxdur. Dövlət başçısının qəbul etdiyi fərman və sərəncamların hüquqi çəkisi qanunvericilik aktları ilə rəqabət aparacaq səviyyədədir. Məsələn, Fransa və Portuqaliya kimi yarı-prezident sistemlərində prezident fərmanlarının qüvvəyə minməsi üçün baş nazirin və ya müvafiq nazirin imzası tələb olunur ki, bu da parlamenti prosesə ortaq edir. Gilermo O'Donnell vurğulayır ki, icra hakimiyyətinin qanunverici nəzarətdən kənarda qalaraq bu şəkildə fərmanlarla idarəetməyə meyil etməsi üfüqi (horizontal) hesabatlılıq mexanizmini tamamilə sıradan çıxarır [9, s. 112–115]. Lakin Azərbaycan Konstitusiyasının 113-cü maddəsinə əsasən, Prezident fərman və sərəncamları müstəqil şəkildə imzalayır və onların qüvvəyə minməsi üçün hər hansı qarşı-imza mexanizmi nəzərdə tutulmamışdır [11]. 2016-cı il konstitusiya dəyişikliklərindən sonra Vitse-prezidentlik təsisatının yaradılması, Milli Məclisin müəyyən şərtlər daxilində buraxılması imkanı (Maddə 98-1) icra hakimiyyətinin institusional mövqeyini daha da möhkəmləndirmişdir [11].

Partiya Sisteminin Zəifliyi: Müasir post-sovet siyasi sistemlərində "hakimiyyət partiyası" fenomeni xüsusi yer tutur. Henri Heylin fikrincə, post-sovet məkanında "hakimiyyət partiyası" anlayışı "hakim partiya"dan tamamilə fərqlidir. Əgər "hakim partiya" dedikdə seçkilərdə qalib gələrək hökuməti formalaşdıran siyasi qüvvə nəzərdə tutulursa, "hakimiyyət partiyası" termini başqa məna daşıyır bu, dövlət elitası tərəfindən yaradılan və onun hakimiyyətini seçkilərə qədər dəyişməz saxlamağa xidmət edən siyasi təşkilatdır. Heyl qeyd edir ki, belə partiyalar "siyasi rəqabətin məhsulu deyil, əksinə, dövlətin idarəetmə mexanizminin bir hissəsidir; onların əsas funksiyası hakimiyyətin sabitliyini təmin etmək və elitalararası əlaqəni qorumaqdır" [12, s. 10]. Bu şəraitdə siyasi partiyalar ikinci dərəcəli aktorlara çevrilir, çünki seçki sistemi elə qurulub ki, real siyasi rəqabət zəifləyir və parlamentlər tədricən rəmzi institut halını alır.

Seçki Mühitinin Qeyri-Şəffaflığı və Rəqabət Məhdudiyyətləri: Seçki prinsiplərinin düzgün iş-

ləməməsi, nəticələrinin əvvəlcədən müəyyənləşdirilməsi, seçkilərin demokratiya imitasiyası olaraq keçirilməsi istər opponent siyasi qüvvələrin, istərsə də əhalinin seçkilərdə iştirak zəifliyi ilə müşahidə olunur. Levitski və Veyə görə, "rəqabətli avtoritar rejimlərdə" seçkilər müntəzəm keçirilir və formal olaraq rəqabətli görünür. Lakin real vəziyyətdə icra hakimiyyəti inzibati resurslardan istifadə etməklə rəqabət balansını öz xeyrinə dəyişir. Bu səbəbdən, seçkilər keçirilsə də, onlar nadir hallarda hakimiyyət dəyişikliyinə gətirib çıxarır və demokratik keçidə şərait yaratmır [14, s. 72–75]. Müəlliflər həmçinin qeyd edirlər ki, dövlət resurslarının bu cür qeyri-bərabər tətbiqi rəqabət meydanını müxalifət əleyhinə kəskin şəkildə korlayır [15, s. 51–54]. Freedom House təşkilatının 2024-cü il hesabatında da postsovet məkanının böyük əksəriyyətində seçki proseslərinin məhdud rəqabət şəraitində keçdiyi və cəmiyyətdə siyasi apatiyanı dərinləşdirdiyi vurğulanır [13, s. 13]. Ali qanunverici orqan seçki mexanizmləri əsasında formalaşdığı üçün rəqabətsiz mühit onun fundamental konstitusion mahiyyətini — legitim xalq təmsilçiliyi funksiyasını tamamilə itirir. Xalqın real iradəsindən qopuq formalaşan belə bir strukturun idarəetmədə marjinallaşması, həm cəmiyyət qarşısında şaquli, həm də icra hakimiyyəti ilə münasibətdə üfüqi hesabatlılıq prinsipinin pozulması ilə nəticələnir.

Vətəndaş Cəmiyyəti və Medianın Vəziyyəti: Tanınmış politoloq Larri Daymond vətəndaş cəmiyyəti təsisatlarını demokratik sistem daxilində dövlət aparatının mütləq hakimiyyətini balanslaşdıran və onu məhdudlaşdıran ən mühüm sosial qüvvə kimi xarakterizə edir [17, s. 223]. Lakin müasir postsovet məkanında, xüsusilə Rusiya Federasiyası təcrübəsində 2012-ci ildən etibarən tətbiq edilən və ardıcıl olaraq sərtləşdirilən "Xarici Agent" qanunvericiliyi fonunda, habelə regionun bir çox digər respublikalarında qeyri-hökumət təşkilatlarının (QHT) və müstəqil media subyektlərinin fəaliyyətinə ciddi hüquqi-inzibati məhdudiyyətlər tətbiq olunmuşdur [13, s. 18]. Azad media mühitinin və vətəndaş cəmiyyəti platformalarının zəiflədildiyi, yaxud tamamilə sıradan çıxarıldığı siyasi sistemlərdə parlament institutları üzərində reallaşmalı olan legitim ictimai nəzarət mexanizmləri də işləklik qabiliyyətini itirir. Belə bir institusional boşluq şəraitində ali qanunverici orqan cəmiyyət qarşısında şaquli, dövlətin digər hakimiyyət qanadları qarşısında isə üfüqi hesabatlılıq funksiyasını effektiv şəkildə yerinə yetirə bilmir. Məşhur tədqiqatçı Stiven Fişin də haqlı olaraq vurğuladığı kimi, parlamentin zəif və periferik statusda qaldığı, vətəndaş cəmiyyətinin isə basqı altında saxlanıldığı ölkələrdə icra hakimiyyətinin mütləq mərkəzləşməsi daha qalıcı və institusional xarakter alır [18, s. 34–36].

Deputat mandatının təbiəti və peşəkarlıq böhranı

Postsovet mühitində qanunverici orqanların kütləvi marjinallaşma prosesini şərtləndirən digər bir fundamental amil — sovet institusional irsindən qalan idarəetmə vərdişlərinin və xüsusilə imperativ mandat elementlərinin hələ də gizli və ya aşkar şəkildə siyasi sistemlərdə təsirini saxlamasıdır. Sovet dövlət hüququ modelinin institusional qalığı olan bu mexanizm, müasir dövrdə demokratik, şaquli hesabatlılığa deyil, deputat korpusunu icra hakimiyyətinin iradəsinə tabe edən nəzarət rıçaqına çevrilmişdir. Belə sistemlərdə parlament strukturları icraedici aparatın birbaşa təsiri altına düşür, xalqın nümayəndələri müstəqil siyasi iradə nümayəndəsi kimi çıxış edə bilmirlər və digər dövlət institutları qarşısında reallaşmalı olan üfüqi hesabatlılıq funksiyası tamamilə iflic olur.

Bununla paralel olaraq, bir çox postsovet ölkəsində deputatların hakim partiyaya loyallıq prinsipi əsasında müəyyənləşdirilməsi, habelə cəmiyyətdə tanınmış simaların (incəsənət xadimləri, idmançılar və s.) parlamentə gətirilməsi ali qanunverici orqanın peşəkarlıq səviyyəsini kəskin şəkildə aşağı salmış və deputatlıq institutunu populist bir xarakterə bürümüşdür. Siyasi-hüquqi səriştədən uzaq olan belə bir korpusun dominantlığı fonunda təmsilçilik bağları elə sarsılmışdır ki, çox vaxt seçicilər öz dairələrindən rəsmi şəkildə "seçilən" deputatları belə tanımırlar.

Tam əksinə olaraq, regionun nisbətən mütərəqqi transformasiya yolu seçmiş dövlətlərində xüsusilə Moldova, Gürcüstan, Ermənistan və müəyyən mərhələlərdə Qırğızıstan təcrübəsində — konstitusiya səviyyəsində azad mandat prinsipi birbaşa təsbit edilərək imperativ məhdudiyyətlər açıq şəkildə qadağan olunmuşdur. Digər postsovet subyektləri ilə müqayisədə bu respublikalarda parlamentarizm ənənələri daha dinamik inkişaf edir, siyasi mədəniyyət tədricən Avropa standartlarına yaxınlaşır və deputatlar lokallıqdan çıxaraq ümummilli mənafeləri təmsil etmək imkanı qazanırlar. Nəticə etibarilə, azad mandat fəlsəfəsi real işlədiyi bu coğrafiyalarda qanunverici orqanın rolu sadəcə formal olmaqdan çıxır və icra hakimiyyətindən nisbətən müstəqil, üfüqi hesabatlılıq müstəvisində tarazlıq yaradan bir instituta çevrilir.

Postsovet məkanında demokratikləşmə dalğaları

və parlamentsentrik transformasiya təcrübələri

Postsovet mühitinin ümumi mərkəzləşmə tendensiyalarına rəğmən, regionun bəzi respublikalarında baş vermiş kütləvi xalq hərəkatları və "Rəngli inqilablar" silsiləsi — xüsusilə Gürcüstanın "Qızılgül", Ukraynanın "Narıncı", Qırğızıstanın "Lalə" və Ermənistanın "Məxməri" inqilabları — keçid dövrü siyasətində fərqli bir institusional koridor açmışdır. Bu proseslərin fundamental katalizatorları rolunda vətəndaş cəmiyyətinin oyanışı, qismən azad media mühitinin formalaşması və mövcud monokratik rejimlərin dərin legitimlik böhranı çıxış etmişdir. Qeyd olunan dövlətlərdə sistem transformasiyası konstitusiya islahatları ilə başlamış, Ukrayna, Gürcüstan və Ermənistanda icra mərkəzli prezident-parlament modelindən parlament-prezident sisteminə, Qırğızıstanda isə bütöv bir onillikdə birbaşa parlament respublikasına keçid reallaşdırılmışdır. Maykl Makfol qeyd edir ki, postsovet ölkələrində baş verən bu kütləvi dalğalar elitanın mütləq idarəetmə monopoliyasını qırmağa yönəlmiş demokratik bir müqavimət modeli idi [19, s. 55–58]. Hərçənd ki, bu institusional keçidlər zaman-zaman kəskin daxili hökumət böhranları və seçki qeyri-sabitliyi fonunda müəyyən bir legitimlik defisiti ilə müşayiət olunsa da, ümumi mənzərədə parlamentin gücləndirilməsi xətti regional elitaların inteqrasiyasına və şəffaflığın artırılmasına xidmət etmişdir.

Sözügedən ölkələrin, xüsusilə Ukrayna və Gürcüstanın parlamentsentrik idarəçilik fəlsəfəsi, superprezidentlik modelləri ilə müqayisədə plüralist partiya sisteminin inkişafını və sağlam siyasi rəqabəti daha çox təşviq edir. Parlamentarizm platforması müxtəlif regional elitaların və sosial-siyasi qrupların ziddiyyətli maraqlarının proporsional təmsilçilik əsasında ifadə olunmasına, beləliklə də dövlət idarəçiliyində monopoliyanın qırılaraq mütəmadi siyasi konsensus imkanlarının yaradılmasına xidmət edir. Mərkəz ilə regionlar arasında effektiv siyasi rabitə quran bu sistem, həmçinin cəmiyyətdəki fərqli etnik qrupların və marginallaşma riski olan təbəqələrin ali qanunverici orqan səviyyəsində inklüzivliyini asanlaşdırır. Bu kontekstdə qadınların siyasi iştirakçılığını qoruyan mexanizmlər diqqəti cəlb edir; məsələn, Qırğızıstanın seçki qanunvericiliyində partiya siyahılarında hər dördüncü namizədin mütləq qadın olması tələbi dövlət idarəçiliyinin şaquli strukturunu cəmiyyətin horizontal ehtiyacları ilə uğurla uzlaşdırmışdır. Lakin digər tərəfdən, Qırğızıstanın son dövrlərdə parlamentsentrizmdən imtina edərək yenidən sərt prezident idarəçiliyinə qayıtması göstərir ki, institusional təminatlar güclü siyasi mədəniyyətlə möhkəmləndirilmədikdə, parlamentarizmin qazandırdığı mütərəqqi nailiyyətlərin və nəzarət mexanizmlərinin itirilməsi riski qaçılmaz olur.

NƏTİCƏ

Aparılan təhlillər göstərir ki, postsovet coğrafiyasında parlamentarizm təsisatı vahid bir şablon üzrə deyil, olduqca fərqli trayektoriyalar üzrə inkişaf etmişdir. Bu fərqliliyi şərtləndirən fundamental amillər tarixi miras, siyasi mədəniyyətin xüsusiyyətləri, liderlik tipologiyası və konstitusiya dizaynıdır. Demokratik inkişaf xəttini seçən və qanunverici orqana real nəzarət rıçaqları verən ölkələrdə (Baltikyanı dövlətlər, Moldova, Gürcüstan) parlament nəzarəti və hökumətin məsuliyyəti mexanizmləri zamanla institusionallaşmışdır. Bunun əksinə olaraq, icra hakimiyyətinin dominant olduğu idarəetmə modellərində (Rusiya, Belarus, Azərbaycan, Qazaxıstan) parlamentlər strateji qərarların qəbulu prosesindən müəyyən qədər kənarda qalaraq, daha çox icra orqanlarının qərarlarını hüquqi cəhətdən rəsmiləşdirən strukturlara çevrilmişlər.

Son nəticədə qeyd edilməlidir ki, parlamentarizmin gücləndirilməsi üçün yalnız normativ-hüquqi islahatlar kifayət deyil, bununla paralel olaraq siyasi plüralizm, media azadlığı, vətəndaş cəmiyyətinin inkişafı və funksional partiya sistemi təmin edilməlidir. Parlamentin real güc mərkəzinə çevrilməsi, yalnız dövlət orqanları arasında real "çəkindirmə və tarazlıq" mexanizminin qurulması ilə mümkündür.

ƏDƏBİYYAT SİYAHISI:

1. Hale, H. E. (2005). Regime cycles: Democracy, autocracy, and revolution in post-Soviet Eurasia. *World Politics*, 58(1), 133–165.
2. Dahl, R. A. (1971). *Polyarchy: Participation and Opposition*. Yale University Press.
3. North, D. C. (1990). *Institutions, Institutional Change and Economic Performance*. Cambridge University Press.
4. Lijphart, A. (2012). *Patterns of Democracy: Government Forms and Performance in Thirty-Six Countries*. Yale University Press.
5. Carothers, T. (2002). The End of the Transition Paradigm. *Journal of Democracy*, 13(1), 5–21.
6. Stepan, A., & Linz, J. J. (1998). Post-Communist Europe: Comparative reflections. In L. Diamond & M. F. Plattner (Eds.), *Democracy after communism* (pp. 193–210). Johns Hopkins University Press.
7. Linz, J. J. (1990). The perils of presidentialism. *Journal of Democracy*, 1(1), 51–69.

8. Linz, J. J., & Stepan, A. (1996). Toward consolidated democracies. *Journal of Democracy*, 7(2), 14–33.
9. O'Donnell, G. (1998). Horizontal Accountability in New Democracies. *Journal of Democracy*, 9(3), 112–126.
10. Филиппова, Н. А. (2006). Парламенты постсоветских государств: факторы доминирования и маргинализации. *Политическая экспертиза: ПОЛИТЭКС*, 2(1), 140–146.
11. *Azərbaycan Respublikasının Konstitusiyası* (son əlavə və dəyişikliklərlə). (2016). Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Dövlət Nəşriyyatı.
12. Hale, H. E. (2006). *Why Not Parties in Russia? Democracy, Federalism, and the State*. Cambridge University Press.
13. Freedom House. (2024). *Freedom in the World 2024: The Mounting Damage of Flawed Elections*. Freedom House.
14. Levitsky, S., & Way, L. A. (2010). *Competitive authoritarianism: Hybrid regimes after the Cold War*. Cambridge University Press.
15. Levitsky, S., & Way, L. A. (2002). The Rise of Competitive Authoritarianism. *Journal of Democracy*, 13(2), 51–65.
16. Republica Moldova. (1994/2023). *Constituția Republicii Moldova*. Article 68.
17. Diamond, L. (1999). *Developing Democracy: Toward Consolidation*. Johns Hopkins University Press.
18. Fish, M. S. (2005). *Democracy derailed in Russia: The failure of open politics*. Cambridge University Press.
19. McFaul, M. (2005). Transitions from Postcommunism. *Journal of Democracy*, 16(3), 55–72.
20. OSCE/ODIHR and Venice Commission. (2021). *Joint Opinion on the Draft Constitution of the Kyrgyz Republic*. European Commission for Democracy through Law (Venice Commission) & OSCE Office for Democratic Institutions and Human Rights, Study No. 1023/2021.

ПАРЛАМЕНТАРИЗМ В ПОСТСОВЕТСКИХ СТРАНАХ: ОСНОВНЫЕ ОСОБЕННОСТИ, ОБЩИЕ И ОТЛИЧИТЕЛЬНЫЕ ЧЕРТЫ

Али Гумрах Эйвазов
Докторант кафедры политологии и социологии
Бакинского Государственного Университета

РЕЗЮМЕ

В статье подробно анализируются формирование, институциональные особенности и этапы развития парламентаризма на постсоветском пространстве. Основная цель исследования — определить роль высших законодательных органов в процессе демократизации постсоветских стран, трудности, с которыми они сталкиваются на фоне сильного президентского правления, и межсистемные различия. Однопартийная модель управления, унаследованная от советской эпохи, долгое время тормозила развитие парламентских традиций, что создало институциональные пробелы в период после обретения независимости. В статье путем сравнения конституционных моделей постсоветских стран анализируются механизмы демократического контроля. В данном контексте рассматриваемые республики классифицируются по институциональному весу парламента в политической системе и степени его авторитета перед исполнительной властью. Особо отмечается, что в странах, где применялась президентская форма правления, авторитарные тенденции усилились, тогда как в государствах, отдавших предпочтение парламентской модели (Прибалтийские республики, Грузия, Молдова и др.), демократические институты приобрели более устойчивый характер. Конституционные реформы, проведенные в Грузии, Украине, Кыргызстане и Армении в результате «Цветных революций», дали импульс обновлению парламентаризма. В качестве важного условия для будущего развития парламентаризма на постсоветском пространстве в статье выдвигается гармония правовой базы, политической культуры и факторов гражданского общества.

Ключевые слова: *парламентаризм, постсоветские страны, президентское правление, императивный мандат, демократизация, конституционные реформы.*

PARLIAMENTARISM IN POST-SOVIET COUNTRIES: MAIN FEATURES, COMMONALITIES, AND DIFFERENCES

Ali Gumrah Eyvazov
PhD Candidate, Department of Political Science and Sociology, Baku State University

SUMMARY

This article broadly analyzes the formation, institutional features, and development stages of parliamentarism in the postsoviet space. The primary objective of the study is to determine the role of supreme legislative bodies in the democratization process of post-Soviet countries, the challenges they face against the backdrop of strong presidential governance, and the cross-system differences among them. The single-party governance model inherited from the Soviet era hampered the evolution of parliamentary traditions for a long time, thereby creating institutional voids in the post-independence period. By comparing the constitutional models of post-Soviet countries, the article analyzes democratic control mechanisms. In this context, the republics in question are classified according to the institutional weight of the parliament within the political system and its level of authority relative to the executive branch. It is particularly noted that authoritarian tendencies strengthened in countries where presidential systems were applied, whereas democratic institutions proved to be more sustainable in nations prioritizing the parliamentary model (the Baltic states, Georgia, Moldova, etc.). Constitutional reforms implemented in Georgia, Ukraine, Kyrgyzstan, and Armenia as a result of the "Color Revolutions" provided an impetus for the renewal of parliamentarism. The article posits the harmony of the legal framework, political culture, and civil society factors as an essential precondition for the future development of parliamentarism in the post-Soviet region.

Keywords: *parliamentarism, post-Soviet countries, presidential system, imperative mandate, democratization, constitutional reforms.*

Rəyçi: BDU-nun "Politologiya və sosiologiya" kafedrasının professoru, fəlsəfə üzrə elmlər doktoru Vəsxanım Orucova

Məqalə redaksiyaya daxil olub: 14.07.2026
Çapa qəbul olunub: 19.08.2026
The date of the admission of the article to the editorial office: 14.07.2026
Accepted for publication: 19.08.2026